# Azərbaycan heç nə itirmədi

## AŞPA ölkəmizə qarşı haqsız davranışı ilə özünü gözdən saldı

Müstəqil dövlət ərazisində hər hansı bir seçki keçirirsə, müşahidə üçün kimlərin gələ biləcəyini özü müəyyən edir. Həmçinin ermənilərin Azərbaycan torpaqlarından çıxması gün kimi hamıya aydındır. Onların getməsinin hər saatı kameralara çəkilib, özləri də bildiriblər ki, zorla qovulmayıblar. Təbii ki, bütün bunlar Avropanın mənasız iddiasıdır. Avropanın hər zaman Azərbaycana yuxarıdan aşağı baxdığını vurğulayan deputat deyib ki, Qərbin dostu, qardaşı, hətta özündən də çox sevdiyi erməni olub. Qoy sevsinlər, ancaq Azərbaycanın haqqını danmaq, ölkəmizə böhtanlar atmaq Avropaya yaraşmır və AŞPA-nı nüfuzdan salır. Azərbaycan heç nə itirmir, ən pis, gülünc vəziyyətdə qalanlar AŞPA-da ölkəmizə qarşı böhtan atanlardır.

Azərbaycan etiraz əlaməti olaraq bu qurumda fəaliyyətini dayandırdı, ölkəmiz bu gün də demokratik yolla inkişaf edir, haqqı müdafiə edir. Azərbaycanın ən böyük arzusu və istəyi Qarabağı cənnətə çevirməkdir.

→ 6

# Azərbaycan heç nə itirmədi

## AŞPA ölkəmizə qarşı haqsız davranışı ilə özünü gözdən saldı

**"Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olub. Bununla başına gətirilən müsibətləri Avropa Şurasına çatdıracağına, Azərbaycanın haqq işi ilə bağlı çox mötəbər qərarlar qəbul ediləcəyinə inanırdı. Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, bir milyon qaçqın və məcburi köçkünün ağır həyat şəraitində yaşadığını, zülm və əzab-əziyyətlərini Avropaya çatdırmaq istəyirdi. Amma təəssüflər olsun ki, 2001-ci ildən 2023-cü ilə qədər Azərbaycan Avropa Şurasından həqiqət deyilən bir şey görmədi..."**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Onun fikrincə, bu illər ərzində hər dəfə Avropa Şurasının rəhbərliyi iddia edirdi ki, nüfuzlu təşkilatın görəvi insan haqları, hüquqları ilə bağlı qanun qəbul etmək, tövsiyələr verməkdir. Guya bir dövlət başqa bir dövlətin ərazisini işğal edibsə, onunla bağlı heç nə edə bilməz: "Bu, Avropanın başqa təşkilatlarının işidir. Nəhayət, 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycan Ermənistan ordusunu darmadağın edərək Qarabağın əsas hissəsini, o cümlədən Şuşanı işğaldan azad etdi. Onda Avropa Şurasında ilk dəfə olaraq təlatüm yarandı, yəni bu qurumun ağlına gəlmirdi ki, bir gün Azərbaycan işğalçı Ermənistanı darmadağın edəcək. Təbii ki, bu vaxt Fransa və başqa dövlətlər eybəcər sifətlərini göstərdilər. Azərbaycana olan düşmən münasibətlərini açıq-aydın ortaya qoydular".

Deputat qeyd edib ki, 2023-cü ilin sentyabrında antiterror tədbirləri ilə Qarabağ torpaqları erməni separatçı qüvvələrindən təmizlənəndən sonra Avropa Şurası ölkəmizə qarşı böhtanlar atmağa başladı: "Azərbaycanı "etnik təmizləmə" aparmaqda, ermənilərə qarşı "soyqırımı" törətməkdə ittiham etməyə cəhd göstərdilər. Sonuncu böhtan fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkilərinə çağırılmamaları ilə bağlı oldu. Bu, Avropa Şurasının Azərbaycanla bağlı qərəzindən başqa bir şey deyildi. Böhtan yağdıranlar siyahısında Fransa, Almaniya, Niderland kimi ölkələr də var. Bu dövlətlərin bütün dedikləri əhəmiyyətsiz fikirlərdir".

A.İsgəndərov vurğulayıb ki, bu iddiaların heç birinin əsası yoxdur. Müstəqil dövlət ərazisində hər hansı bir seçki keçirirsə, müşahidə üçün kimlərin gələ biləcəyini özü müəyyən edir. Həmçinin ermənilərin Azərbaycan torpaqlarından çıxması gün kimi hamıya aydındır. Onların getməsinin hər saatı kameralara çəkilib, özləri də bildiriblər ki, zorla qovulmayıblar. Təbii ki, bütün bunlar Avropanın mənasız iddiasıdır. Avropanın hər zaman Azərbaycana yuxarıdan aşağı baxdığını vurğulayan deputat deyib ki, Qərbin dostu, qardaşı, hətta özündən də çox sevdiyi erməni olub. Qoy sevsinlər, ancaq Azərbaycanın haqqını danmaq, ölkəmizə böhtanlar atmaq Avropaya yaraşmır və AŞPA-nı nüfuzdan salır. Azərbaycan heç nə itirmir, ən pis, gülünc vəziyyətdə qalanlar AŞPA-da ölkəmizə qarşı böhtan atanlardır.

Azərbaycan etiraz əlaməti olaraq bu qurumda fəaliyyətini dayandırdı, ölkəmiz bu gün də demokratik yolla inkişaf edir, haqqı müdafiə edir. Azərbaycanın ən böyük arzusu və istəyi Qarabağı cənnətə çevirməkdir. Otuz il ərzində erməni daşnak qüvvələri şəhərləri, kəndləri xarabazarlığa çeviriblər. Bu gün dövlətimiz həmin şəhərləri, kəndləri yenidən qurur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 7 fevral, № 26.- S.1, 6.